# ARİF ƏRDƏBİLİ - NİZAMİ GƏNCƏVİ «MÜNAQİŞƏSİ»

## («TƏNQİD TARİXİMİZDƏN»- 5-ci yazı)



VAQİF YUSİFLİ

Nizami Gəncəvinin dünya söz sənətinin dahi təkləri sırasında yer tutduğunu bütün Şərq və bütün Qərb alimləri etiraf etməkdədir. «Elə dahi təklər sırasında ki, sənəti sabaha və əbədiyyətə aparan yolda indi də bizdən səkkiz əsr əvvəldə yox, səkkiz əsr qabaqda, irəlidə addımlamaqda davam edir» (Yaşar Qarayev). Beş kamil inci - «Xəmsə» ilə o, Şərq ədəbiyyatında epik poeziyanın inkişafına qüvvətli təsir göstərmiş, Şərq İntibahının formalaşmasına, İslam və türk mədəniyyətinin çiçəklənməsinə, Şərqdə yeni bədii janr, forma və şəkillərin yaranmasına, əsrlər boyunca davamlı, sürəkli bir ədəbi məktəbin-poetik sistemin intişar tapmasına baniyi-karlıq etmişdir.Nizami təkcə Şərq və Azərbaycan hadisəsi deyil, dünya mədəniyyəti hadisəsidir və «Nizami elə şəxsiyyətdir ki, Renessans özü Nizamidə əriyə bilir» (N.Starostin).

Bütün əsrlər boyu Nizami irsi Şərqdə də, Qərbdə də eyni rəğbət və məhəbbətlə tədqiq olunmuş, onun fəlsəfi poeziyası, bütün «izm»lərdən yüksəkdə duran sənəti örnək sayılmışdır. Onun əsərlərinin fəlsəfi tutumu, humanist idealları, insan təlimi, ədalətli cəmiyyət haqqında fikirləri bir təlim və tədris səviyyəsində etiraf edilmişdir. Nizami poeziyası bütün əsrlərin ədəbi-estetik fikir tarixində demək olar ki, heç bir tənqidə tuş gəlməmişdir.

Lakin bir istisna olmaqla...

Nizamini tənqid?

Buna yalnız iki əsr sonra Arif Ərdəbili cürət edib. Əslində, bunu tənqid adlandırmaq doğru olmazdı, sadəcə, fikir ayrılığından doğan bir məqam kimi vurğulamaq lazımdır. Arif Ərdəbiliyə qədər tənqidi fikir şairlərin söz, sənət haqqında poetik tezisləri şəklində davam edirdi, Xaqani də, Nizami də konkret bir ədəbi əsər haqqında mühakimə yürütmürdülər, Arif Ərdəbili isə ilk dəfə olaraq bədii əsərdən-Nizaminin «Xosrov və Şirin»indən söz açır. Bu isə ədəbi-estetik fikir tariximizdə ilk hadisə idi və əlbəttə, Arif Ərdəbilinin nə dərəcədə haqlı olub-olmaması burada o qədər də önəmli deyil.

Əvvəlcə qısaca olaraq Arif Ərdəbili haqqında...

Arif Ərdəbili (1311-?) Nizami ədəbi məktəbinin nümayəndəsidir. Ədəbiyyat tariximizdə o, Nizaminin «Xosrov və Şirin» əsəri mövzusunu yenidən işləyib, «Fərhadnamə» yazan ilk şair kimi tanınır. Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» təzkirəsində yazır: «Arif Ərdəbili –hicri qəməri VIII (XIV) əsrin söz ustalarındandır.O, Sultan Üveys Cəlayir zamanında böyük Şirvanşah Keykavus Keyqubad oğlunun dəvətilə Şirvana gəlmiş və orada Şirvanşahın oğlunun müəllimi olmuşdur. Arif bu padşahın adına «Fərhadnamə» adlı bir mənzumə qoşmuşdur...Bu əsərin yeganə nüsxəsi Ayasofiya muzeyi kitabxanasında 3335 şifr altında qeyd edilmişdir». Məlumatın sonluğu Arif Ərdəbilinin «Fərhadnaməsi»ndən gətirilən bir mənzumə ilə bitir. Sonu belədir:

Çox dastanlar eşitdim Fərhad əsərlərindən,
Qeyd etdim mən burada ancaq gördüklərimdən.
Dostlara mən oxudum, hər kim onu eşitdi,
Xoşladı sözlərimi, bir çox təriflər etdi.
Söz sahəsində bunla yeni əsas yaratdım,
Bu sözlərlə kuhikən Fərhadı xatırlatdım.
Bitirdim bu söhbəti, son qoydum mən qələmə,
Qoy qalsın bu əsərin adı «Fərhadnamə».

İstər üç cildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin I cildində (1960), istərsə yeddi cildlik ədəbiyyat tarixinin III cildində (2009), istərsə də Ə.Səfərli və X.Yusiflinin «Azərbaycan ədəbiyyatı tarixi-qədim və orta əsrlər» tədqiqatlarında Arif Ərdəbilinin yaradıcılığından lazımınca söz açılmış, onun «Fərhadnamə»si ədəbiyyat tariximizin maraqlı bir hadisəsi kimi qeyd olunmuşdur. Onların bu fikirlərini belə ümumiləşdirək: bütün tədqiqatçılar «Fərhadnamə»ni XIV əsrdə Nizami ənənələrinin davamı olan bir əsər kimi qələmə verirlər. Həm də qeyd edirlər ki, Arif Ərdəbili Nizamini təkrar etmədən yeni, orijinal bir əsər yazmışdır. Bəs orijinallıq nədədir? Deyilir ki, poemanın baş qəhrəmanı Nizamidə olduğu kimi Xosrov deyil, Fərhaddır.İki hissədən ibarət bu poemada Fərhadın taleyi, onun Gülüstan və Şirinlə sevgi macəraları, Xosrovla münasibətləri və sonda zəhərlənib öldürülməsi (əsər çoxplanlılığı, mürəkkəb süjetliliyi ilə seçilir) və s. hadisələr təsvir olunur. Qeyd edilir ki, «Fərhadnamə» əsəri Azərbaycan, eləcə də bütün Yaxın və Orta Şərq ədəbiyyatında əmək adamını əsas qəhrəman götürüb hünər və zəhməti ön plana çəkən ilk poemadır.

Təbii ki, bütün bu fikirlərə haqq qazandırırıq. Lakin bir məqamı qeyd etmək lazımdır. «Nizamini təkrar etmədən, yeni, orijinal bir əsər yazmışdır» ifadəsi mübahisə doğurmurmu?. Çünki «Fərhadnamə»də Nizaminin «Xosrov və Şirin»indəki əksər personajlar iştirak edir, süjet təxminən eyni məhəbbət dolanbaclarından keçir. Hətta bəhr də eynidir. Onda belədirsə, «Xosrov və Şirin» yazılmasaydı, «Fərhadnamə» yaranardımı? sualı ortaya çıxır. Nizami «Xəmsə»sinə müraciət edən Əmir Xosrov Dəhləvi, Ə.Cami, Ə.Nəvai də eynən Nizamini təkrar etməmişlər, lakin onun qurduğu poetik sistemə sadiq qalmışlar. Bunu «Fərhadnamə»də də görmək olar. Orijinallığı hadisələrin və personajların yeniləşməsində axtarmaq nə dərəcədə doğrudur?

Keçək əsas məsələyə. Arif Ərdəbilinin «Xosrov və Şirin»lə bağlı tənqidi fikirlərini doğuran səbəblər nədən yaranmışdı? Nizaminin poemasında hansı məsələlər onu qane etmirdi? Bunu ilk növbədə, Arif Ərdəbilinin təsvir etdiyi hadisələrə müəyyən dərəcədə fərqli münasibəti ilə izah etmək olar. Görkəmli tənqid tarixçimiz-akademik Kamal Talıbzadə Arif Ərdəbilinin bədii ədəbiyyatda ağıl, məntiq və həyat həqiqətinə yaxınlıq tezisi üzərində dayanır: «Şair bu fikirdə idi ki, sənət əsərində təsvir olunan hadisə, əhvalat, hisslər ağlın məntiqi tələblərinə uyğun gəlməlidir. Ağlın süzgəcindən keçməyən hadisələr qeyri-təbii təsir bağışlayır, ədəbiyyatın tələblərini qorumur. «Əgər doğru yazmağa imkan varsa, yalan işlətmək nə lazım»-Arif

Ərdəbili bu beyti əldə əsas tutaraq Nizaminin «Xosrov və Şirin» poemasına yanaşır, oradakı hadisələri, obrazları bir-bir bu baxımdan təhlil edir və sübuta çalışır ki, Nizami öz əhdini pozmuş, təsvirlərində «doğru» olmayan səhnə və vəziyyətlər yaratmışdır». Əlbəttə, tədqiqatçılar bu məsələyə daha çox diqqət yetirmişlər və Arif Ərdəbilinin fikirlərində ifrata vardığını, Nizamini düzgün dərk etmədiyini nəzərə çarpdırmışlar. Guya Nizami reallıqdan uzaqlaşmış, «Xosrov və Şirin»də gerçəkliyin təsvirində məntiqsizliyə yol vermişdir. Niyə Xosrov Şirini çimərkən görüb başını döndərir, halbuki, onda kişilik qanı cuşə gəlməli idi. (A.Ərdəbili başqa misallar da gətirir: Xosrov bir yumruqla şiri öldürür, Şəbdiz daşdan törəyir, Fərhad Şirini atla birlikdə götürüb Qəsri-Şirinə gətirir və s.) Əlbəttə, Nizami böyük məhəbbəti təsvir edirdi və şəhvət oyununun təsvirinə yol verə bilməzdi. Nizami tədqiqatçısı Nüşabə Araslı doğru qeyd edir ki: «Arifin səhvi ondadır ki, o öz şəxsi həyat təcrübəsindən çıxış edərək qadın və kişilərə ancaq şəhvani duyğularla yaşayan, heyvani hisslərini hər bir şəraitdə təminə çalışan varlıqlar kimi yanaşır. Nizami isə insana, onun mənəvi böyüklüyünə inanır». Qeyd edək ki, «Fərhadnamə»də kişi-qadın münasibətlərini şəhvani səhnələrlə əks etdirən lövhələr diqqətdən yayınmır. Nizamidən fərqli olaraq Arif Ərdəbili sarayda yaşayırdı və təbii ki, poemasında Nizamiyə irad tutduğu bu fikirlər onun öz həyat təcrübəsindən irəli gəlirdi: «Sərxoş dilbərlərin xasiyyətini o adam bilir ki, həmişə onlarla bir yerdə olsun. Mən bu əfsanəni (yolu) keçmişəm. İncə gözəllərin halını görmüşəm».

«Doğru» və «Yalan»- Arif Ərdəbilinin sənət görüşlərində bu iki anlayış daha çox diqqət mərkəzinə çəkilir.Onun «doğru» bildiyi bu idi ki, şair gərək həqiqətə uyğun olanları qələmə alsın. Təsvirlərində mübaliğəyə, ifrata varmasın. Amma elə «Fərhadnamə»də o, qətiyyətlə bədii təxəyyülün vacibliyini də qeyd edirdi.

Nitqə gəl, sözünlə möcüzə yarat,
Xəyal göylərində sən aç qol-qanad...
Əgər bu olmasa, söz haman olmaz,
Sözdə xəyal yoxsa, onda can olmaz.

Paradoks, eləmi? Yenə Kamal Talıbzadəyə müraciət edək: «Aydın hiss olunur ki, «doğru» və «yalan» terminlərinin fikir-estetik tutumunu Arif Ərdəbili məhdud dərk edir. M.F.Axundov Firdovsi, Nizami və Şekspir yaradıcılıqlarındakı xəyali şərtiliklərdən böyük sənət əsərlərində istifadəni mümkün sayırdı. Odur ki, A.Ərdəbilinin Nizaminin «yalanı»-romantikası əleyhinə söylədiyi fikirləri onun ədəbi mövqeyi kimi qiymətləndirmək birtərəfli, bəzən isə yanlış nəticələrə aparıb çıxara bilər».

Arif Ərdəbili romantikaya, romantik təsvir üsuluna və «xəyali şərtiliklərə» münasibəti ziddiyyətli idi . Bir tərəfdən Nizamini «Xosrov və Şirin»də guya ağla batmayan təsvirlərə yol verməsini tənqid edirdi, amma özü romantik əhval-ruhiyyənin və təsvirlərin vacibliyini qeyd edirdi. Onun fikrincə, hər hansı romantikada həyatilik çalarları da olmalıdır, ancaq tədqiqatçıların qeyd etdikləri kimi,bu həyatilik A.Ərdəbilinin əsərində bəzən bayağı şəkildə ifadə olunurdu.

Bəs məqsəd nə idi? Nizamini təqsirləndirmək hansı səbəblərlə bağlı idi? Nizaminin «Şeirdən ucalıq umma dünyada. Çünki Nizamiylə qurtardı o da» oğluna nəsihətlə söylədiyi bu fikri niyə Arif Ərdəbili qəbul etmirdi? Əlbəttə, Nizamidən iki əsr sonra yaşayan, onun ədəbi məktəbinin nümayəndəsi sayılan bir şairin öz ustadına belə qərəzli münasibətini bir neçə səbəbdə izah etmək olar. Birincisi; Nizami saraylarda yaşamadı, azad, sərbəst bir həyat tərzi keçirdi. Onun romantik dünyası hər cür qadağalardan və təzyiqdən azad idi. Arif Ərdəbili isə sarayda yaşadı, kübar həyata meylli oldu və saray əxlaqının onun yaradıcılığına təsirsiz qalmadığı buradan irəli gəlir. Onun Nizamini tənqid etməsi saray əxlaqından irəli gəlirdi. Burada dünyagörüşü məsələsini də unutmaq olmaz. «Nizaminin «doğrusu»da «yalanı» da İntibah dövrünün böyük mütərəqqi, bəşəri ideallarının tərənnümünə yönəlmişdi. Arif Ərdəbili isə saray dünyasının, şahların, saray gözəllərinin, kübar həyatının «doğru»sunu yaratmağa can atmışdır» (K.Talıbzadə). İkincisi; A.Ərdəbili Firdovsini ustad sanırdı və yazırdı ki, Firdovsi Nizami ilə müqayisədə doğruya daha çox meyl etmişdir. Halbuki, Nizami də Firdovsini elə bunda qınamışdı. Üçüncüsü; sırf subyektiv amillərlə bağlıdır. Dünya ədəbiyyatında buna uyğun hadisələr azmı olmuş? Axundzadənin Füzuliyə, Tolstoyun Şekspirə münasibətini xatırlayaq.

Öncə qeyd etdik ki, Arif Ərdəbilinin «Fərhadnamə» əsəri ədəbiyyat tariximizin maraqlı bir hadisəsidir və onun Nizamini tənqid etməsi, dahi şairin bəzi fikirləri ilə razılaşmaması «Fərhadnamə»nin əhəmiyyətini qətiyyən azaltmır.Onun «doğru» hesab etdiyi fikirlər hətta nə qədər subyektiv səslənsə də, ədəbiyyatda yeni bir tendensiyanın yaranışına rəvac verirdi.

«Fərhadnamə»nin Nizami ənənələrinin sonrakı inkişafında mühüm rol oynadığını da unutmaq olmaz. Əməyin, zəhmətin böyük xarüqələr yaratdığını Nizami Fərhad obrazında ümumiləşdirdi, Fərhadı ideal qəhrəman səviyyəsinə yüksəltdi, Arif Ərdəbili isə bu mövzunu daha da genişləndirdi, Xosrovu deyil, Fərhadı ön plana çəkdi. Bir əsr sonra özbək ədəbiyyatının böyük klassiki Əlişir Nəvai «Fərhad və Şirin» poemasında da eyni yolla getdi, Fərhadı baş qəhrəman kimi təqdim etdi. Nizaminin Xosrovu bu poemada artıq öz missiyasını itirir. «Fərhadnamə»də Xosrov Şirinə o qədər də meylli deyil, çünki Məryəmlə başı qarışıb, hətta Şirini Fərhada verməyi qərara alır. A.Ərdəbili Xosrovu ikinci planda saxlayır. Nəvaidə isə Xosrov tamamilə mənfidir. Nizami öz poemasında rəzil, pozğun bir hökmdarı-Xosrovu məhəbbətin qüdrətilə insana döndərir, Arif Ərdəbili buna heç cəhd etmir, Nəvai isə Xosrovu tamamilə mənfi planda əks etdirir. Əlbəttə, bu ədəbiyyatda yeni bir tendensiyanın-ideal qəhrəman seçimində ən doğru bir yol idi. Neçə əsr sonra Səməd Vurğunun «Fərhad və Şirin»i yarandı, «Fərhadnamə» mövzusu müasir poetik təfəkkürün inikasına çevrildi.

Qayıdaq Arif Ərdəbili-Nizami Gəncəvi «münaqişəsi»nə. Bu «münaqişə»də Arif Ərdəbilinin böyük Nizamini tənqid etməsi, bir çox məqamlarda onunla razılaşmaması Azərbaycan ədəbi-estetik fikir tarixində çox maraqlı bir hadisə idi və hərçənd ki, bu «münaqişə»də biz Arif Ərdəbiliyə yox, Nizamiyə haqq qazandırırıq.